# Yeniyetmələr: yaş dövrünün xüsusiyyətləri və problemlər

**Mətanət Həsənova**
*Azərbaycan Dillər Universitetinin müəllimi*

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** böhran, simptomlar, neqativizm, özünütəsdiq, özünüdərk
**Ключевые слова:** кризис, симптомы, негативизм, самоутверждение, само-сознание
**Key words:** crisis, symptoms, negativism, Self-affirmation, Self-consciousness

Yeniyetməlik yaş dövrü 11-12 yaşdan 14-15 yaşadək müddəti – məktəbin ikinci pilləsində oxumaq, təhsil almaq dövrünə təsadüf edir və orqanizmin ümumi həyat fəaliyyətinin yüksəlişi və bütün orqanizmin hərtərəfli inkişafı ilə xarakterizə olunur. Bu yaş dövrü kiçik yeniyetməlik (11-12 yaş) və böyük yeniyetməlik yaş dövrü (13-15 yaş) olmaqla iki əsas mərhələyə ayrılır. Lakin yeniyetməlik dövrünün başlanmasına və qurtarmasına dəqiq sərhəd qoymaq düzgün olmazdı və bu mümkün deyildir. Orta hesabla qızlar oğlanlara nisbətən 1-2 il əvvəl yetişkənlik dövrünə çatırlar. Yeniyetməliyin sonuna yaxın bu fərq aradan qalxır. Sosio-iqtisadi şərtlər, iqlim şəraiti yeniyetməliyin başlanğıcına təsir edərək yetişkənliyin tez və ya gec olmasına səbəb olur.

Yeniyetməlik yaş dövrü anatomik-fizioloji, psixi və sosial keyfiyyətlər baxımından həyatın bir mərhələsindən digərinə-yəni uşaqlıqdan yaşlılığa keçid dövrü kimi səciyyələndirilir. Yeniyetməlik yaşı inkişafın xüsusi və mürəkkəb dövrüdür. Psixoloji-pedaqoji ədəbiyyatlarda uşağın inkişafının bu dövrü "çətin dövr", "böhranlı dövr", "keçid dövrü", "ziddiyyətli dövr" və s. kimi xarakterizə olunur. Bununla əlaqədar, oğlan və qızlar özlərinə daha çox diqqət yetirməyə, daha yaraşıqlı görünməyə çalışırlar. Görkəmli psixoloq L.S. Vıqotski öz fikrini belə ifadə etmişdir: "Yeniyetməlik yaşını hamı "cinsi yetişmə yaşı" adlandırır. Lakin bu yaş eyni zamanda "şəxsiyyətin yetişməsi yaşıdır" (2, 186).

Ümumiyyətlə, yeniyetmənin şəxsiyyət kimi formalaşması üçün yetkinliyin cinsi, psixoloji və sosial səviyyəsi vəhdətdə inkişaf etməlidir. Yeniyetməlik dövründə şəxsiyyətin kollektivdəki sosial mövqeyi də əsaslı surətdə dəyişir. Belə ki, bu yaşda yeniyetmələr "kiçik" uşaqdan "böyük" uşağa çevrilir (3, 308).

Yeniyetməlik yaş dövründə yaşlılıq hissinin meydana gəlməsi uşaqların özünüqiymətləndirməsinə də əsaslı təsir göstərir. Əvvəlki dövrdən fərqli olaraq yeniyetmə indi öz həyatına passiv münasibət bəsləmir, özünə, öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə maraq yaranır. Bunun nəticəsi olaraq özünüqiymətləndirmə tələbatı, özünü başqaları ilə müqayisə etmə meyli əmələ gəlir. Yeniyetmədə mənlik şüurunun yaranması onun öz davranışını, özünün mənəvi keyfiyyətlərini, xarakter və qabiliyyətlərini dərk etməsi ilə başlayır. Mənlik şüurunun yaranması, onun "mən" olaraq araşdırdığı hər şey yeniyetmənin özünü necə qavraması ilə əlaqədardır. Əsas olan isə yeniyetmənin özünü sevilə bilən, qəbul edilən biri kimi hiss etməsidir.

İlk dövrlərdə yeniyetmənin mənlik şüurunun əsasını başqa adamların mülahizələri təşkil edir. Yaş artdıqca yeniyetmə özünün şəxsiyyətini müstəqil təhlil etməyə və qiymətləndirməyə başlayır. Yeniyetmədə mənlik şüurunun formalaşması onun bütün psixi həyatına öz təsirini göstərir. Ümumiyyətlə, yeniyetməlik yaş dövrü kimlik axtarışının fırtınalı və sərt bir şəkildə

yerinə yetirildiyi çətin bir dövrdür.

Yaş psixologiyasında bu dövrün yeniyetməlik dövrü adlandırılmasının səbəbi uşaq şəxsiyyətinin yetkinləşməsi ilə əlaqədardır. Baş verən yetkinliklə, dəyişikliklə bağlı olaraq şagirdin təlim və tərbiyəsində, rəftar və davranışında müxtəlif tip psixoloji çətinliklər də özünü göstərir. Tənbəllik, kobudluq, qapalılıq, inadkarlıq, insanlardan uzaqlaşmaq və s. kimi mənfi keyfiyyətlər yaranır. Valideynin uşağı cəzalandırması, töhmətləndirməsi isə heç bir səmərə vermir, əksinə uşaqda daha da sərt psixoloji xüsusiyyətlər formalaşdırır.

Apardığımız sorğular zamanı da məlum olmuşdur ki, məktəbdə müəllimlər yeniyetmələrlə işləməkdə çətinlik çəkir və bu psixoloji çətinliklərin ildən-ilə artdığını bildirirlər. Yeniyetməlik yaşına qədər ata-ana uşağın həyatının mərkəzində dayanırdısa, artıq bu bu yaş dövründə yeniyetmə həyatının mərkəzi yerini yoldaşları, həmyaşıdları alır. Həmyaşıdları tərəfindən sevilmək və qəbul edilmək yeniyetmə üçün əsas olur. Yeniyetmə valideynlərindən azad olma mübarizəsinə girir və ailənin bu mübarizəyə olan münasibəti yeniyetmənin davranışının nə dərəcədə sərt olmasını müəyyənləşdirir. Bəzən də elə hallar olur ki, yeniyetmə üçün bu gün dünyanın ən yaxşı ata-anası olan valideynləri sabah tam əksinə təsir bağışlayır.

Uşağın yeniyetməlik yaş dövrünə necə qədəm qoymasından asılı olmayaraq, onun fəaliyyətinin başlıca motivi yoldaşlarının hörmətini qazanmaq, onların yanında nüfuza malik olmaqdır. Yeniyetmə yoldaşlarının rəyini müəllimlərin və valideynlərin rəyindən üstün tutur. Yeniyetmənin cəhd göstərdiyi ilk məsələ ağıllı, bacarıqlı insan kimi özünü təsdiq etməkdir. Hələ kiçik yeniyetməlik dövründən onların xarici görünüşü özünütəsdiq vasitəsinə çevrilir. Ətrafdakıların onlar haqda nə düşündükləri yeniyetmələri bir o qədər də narahat edir.

Əgər yeniyetmə özünü nöqsanlı hesab edirsə, o, ətrafdakılardan qaçmağa, özünü gizlətməyə, yerli-yersiz utanmağa başlayır. Buna görə də, valideynlər övladları ilə onların görkəminin xüsusiyyətləri və bəzən qeyri-adi görünən görkəmlərinin normal olduğu barədə söhbətlər aparmalıdırlar. Bu yaş dövründə yeniyetmələr, adətən, öz planlarını həyata keçirməkdə çətinlik çəkirlər. Bu isə onlarda özünə inam hissini itirir.

Yaşlıların etimadını qazanıb onlarla birlikdə çalışdığı zaman yeniyetmədə düşüncəlilik, həssaslıq və diqqətlilik kimi psixoloji xüsusiyyətlər meydana gəlir. Yeniyetməlik dövründə uşaqlar ayrı-ayrı sahələr üzrə müxtəlif alətlərdən istifadə edir, cürbəcür şeylər hazırlayırlar. Uşaq öz əli ilə düzəltdiyini hamıya göstərərək onunla fəxr edir. Yeniyetməlik dövrü müxtəlif bacarıqlara yiyələnmək üçün ən əlverişli dövrdür. Yaşlıların qayğısı sayəsində isə yeniyetmə hər bir işi görməyə hazır olur. Hər bir yeniyetmə oğlan və qızlar özlərindən yaşca böyüklərin bacarıqlarını mənimsəməyə meylli olurlar.

Yeniyetməlik dövründə nəzərə çarpan mühüm psixoloji xüsusiyyətlərdən biri də yeniyetmənin sosial-psixoloji ünsiyyət fəaliyyətinin genişlənməsi, yoldaşları ilə qarşılıqlı münasibətə səy göstərməsidir. Yeniyetmənin yoldaşları ilə ünsiyyəti getdikcə genişlənir və möhkəmlənir. Lakin ünsiyyətin pozulması halları baş verdikdə bu yeniyetməyə böyük sarsıntı gətirir, eyni zamanda, yoldaşlarının ona soyuq münasibəti onun üçün ən ağır cəzaya çevrilir. Bu yaşda yoldaşlıqda sadiqlik, doğruçuluq, müsbət qarşılıqlı münasibətlər kimi keyfiyyətlər aparıcı olur.

Get-gedə yeniyetmənin yoldaşlığı seçici xarakter daşımağa başlayır. Yeniyetmələrdə oğlan-qız münasibətləri formalaşır və onlar bir-birinin xoşuna gəlməyə cəhd edirlər. Yeniyetməliyin ilk dövrlərində qızlar və oğlanlar öz cinslərinin nümayəndələri ilə yaxın olurlar. Qızlar dostlarına daha çox bağlanırlar və eyni zamanda qızların dostlarından tələbləri daha yüksək olur. Oğlanlar isə daha çox bir neçə həmyaşıdı ilə birgə dostluq edir, daha az sirlərini bölüşürlər. Psixoloji tədqiqatlar göstərir ki, yeniyetməlik dövründə oğlan və qızların

davranışı hələ ambivalent xarakter daşıyır: onlar həm bir-birilə maraqlanır, həm də onlar arasında seçicilik formalaşır (3, 329).

Antropoloqlar yeniyetməlik yaşını uşağın cəmiyyətdə müəyyən mövqe tutmağa doğru getdiyi yol, bir növ "cəmiyyətə daxil olma dövrü" hesab edirlər. Bu ideyanı xüsusilə inkişaf etdirən Kurt Levin (ABŞ) göstərir ki, cəmiyyətə nüfuz edən yeniyetmədə uşaqlıq dövrünə məxsus olmayan yeni üstünlüklər əmələ gəlir. Lakin bu üstünlüklər uşaqlıqla yaşlılıq arasında müəyyən bir sədd çəkdiyindən və yeniyetmə uşaq qrupu ilə yaşlı qrupu arasında qaldığından onun inkişafında hər cür ziddiyyət və böhran baş verir.

D. Koulmen bu ideyanı bir qədər də inkişaf etdirərək göstərir ki, yaşlılar cəmiyyətində yeniyetmələrin özünəməxsus cəmiyyəti mövcud olur. L.S.Vıqotski böhran probleminə tamam başqa cür yanaşıb göstərir ki, yaş böhranlarını öyrənərkən yeniyetməlik dövrünün "böhranları" ictimai həyatın onlara verdiyi konkret sosioloji tələbatı ödəyərkən, yəni inkişaf edən yeniyetmənin böyüklər aləmində müəyyən mövqe tutmaq istədiyi zaman qazanılan xüsusiyyətlərlə, müstəqilliyə artan tələbatlarla bu müstəqilliyi həyata keçirmək imkanları arasında baş verir. Psixoloji müşahidələr göstərir ki, yaşlılar çox vaxt yeniyetmələrin tələbi ilə razılaşmır, yeniyetməyə hələ də uşaq kimi yanaşmaqda davam edirlər.

Psixoloq T.V. Draqunovaya görə, bunun səbəbi aşağıdakılardan ibarətdir: *Əvvəla* ona görə ki, insana onun cəmiyyətdəki vəziyyəti, mövqeyi dəyişdikdə yeni hüquqlar verilir. Lakin yeniyetmənin ictimai mövqeyi dəyişikliyə uğramır, o, əvvəlki kimi şagird olaraq qalır. *İkincisi,* uşaq müəllimlərlə yanaşı, onun tərbiyəsi ilə məşğul olan valideynlərdən də maddi cəhətdən tam surətdə asılı olur. *Üçüncüsü,* yaşlıların uşağa istiqamət verməyə, ona nəzarət etməyə adət etməsi özünü göstərir. *Dördüncüsü,* yeniyetməlik yaşının əvvəllərində onların rəftar və davranışlarında uşaqlıq əlamətləri çox tez-tez nəzərə çarpır; müstəqilliyə meyl qüvvətli şəkildə olsa da yeniyetmə çox vaxt müstəqil hərəkət etməyi bacarmır, davranış və simasında hələ uşaqlıq əlamətləri hifz edilir.

Bütün bunlar yaşlılara imkan verir ki, yeniyetməyə uşaq kimi yanaşsınlar. Lakin yaşlıların belə münasibəti nəinki yeniyetmənin özünün səylərinə (yaşlılıq meylinə), həm də bu yaşda uşaqların tərbiyəsi vəzifələrinə zidd gəlir. Yeniyetmədə yaşlılıq hissi və meylinin inkişafı onu gələcək həyata hazırlamaq üçün ictimai cəhətdən zəruridir. Bu mürəkkəb prosesdir, xeyli vaxt tələb edir, lakin tamamilə mümkündür. Aydın olur ki, yeniyetmədə yaşlılıq hissi və meylinin formalaşmasının əsas mənbəri cinsi yetişkənlik deyildir. Yaşlılıq hissi və meyli, onun mühüm tərkib hissəsi kimi əks cinsə romantik münasibətin formalaşması yeniyetmənin sosial inkişaf şəraitindəki faktik yeri, ailədə, məktəbdə tutduğu mövqeyə münasibəti və fəaliyyətinin xarakteri ilə bağlıdır (2, 206). Yeniyetməlik dövründəki əsaslı dəyişikliklərdən biri yeniyetmənin özünüdərketməsinin inkişafında irəliləyişin olmasından ibarətdir. Buna görə də, yeniyetmə özünü uşaq kimi deyil, yaşlı kimi aparmağa can atır və ətrafdakılardan da ona uşaq kimi deyil, böyük kimi yanaşılmasını tələb edir. Bununla əlaqədar olaraq yeniyetmə müstəqilliyə meyl edir. Lakin yeniyetmənin müstəqilliyə olan geniş tələbatı onun bu müstəqilliyi həyata keçirmə imkanlarına sığışmır. Yaşlıların məhdudiyyətinə isə yeniyetmə öz etirazını bildirərək, müxtəlif məsələlərin həllində öz müstəqilliyini bərpa etməyə çalışır: nə vaxt, kiminlə, harada gəzməyini, necə geyinməyini, bəzənməyini özü təyin etmək istəyir. Bu zaman yeniyetmədən "Mən özüm bilərəm, nə vaxt nəyi təyin etmək lazımdır?", "Kiminlə dostluq etmək mənim öz işimdir", "Mənə aid olanları mən özüm bilərəm" və s. bu kimi ifadələri daha çox eşitmək olur.

Səkkiz-doqquzuncu sinif şagridləri böyük yeniyetməlik yaşı dövründədirlər. Kiçik yaşlı yeniyetmələrdən fərqli olaraq onlar fiziki və psixi inkişafın yüksək mərhələsinə çatırlar. Əsas

dəyişikliklər onların idraki fəaliyyətində, qabiliyyət- lərində, taradıcı fəallığında baş verir. Odur ki, yaşlılar yeniyetmənin müstəqilliyini, hüquq və vəzifələrini genişləndirməli, həyat və fəaliyyətin müxtəlif sahələrində yaşlı adam kimi iştirak etmək-yaşlılar aləminə daxil olmaq üçün ona şərait yaratmalı, bilavasitə kömək göstərməlidirlər. Əks halda yeniyetmə bu aləmə onların köməyi olmadan daxil olur. Belə hallarda ona yoldaşları, dostları, başqa yaşlılar kömək göstərirlər, lakin bu zaman yaşlılıq hissi valideyn və müəllimlərin təsir sahəsindən kənarda inkişaf etdiyi üçün tərbiyə işində çoxlu əlavə çətinliklər meydana çıxır. Göründüyü kimi, uşaqların "yaş böhranları" onların psixi inkişafında müxtəlif keçid xarakterli dəyişmələrlə və tipoloji xüsusiyyətlərlə müşahidə olunur. Bütün bu bioloji, psixoloji və sosioloji dəyişmələr uşaqların şəxsiyyətinin inkişafında önəmli əhəmiyyət kəsb edir.

**Məqalənin aktuallığı.** Yeniyetməlik yaş dövründə özünü göstərən mühüm dəyişikliklər onlarda özünüdərkin, özünüqiymətləndirmənin və özünüaktuallaşdırmağın formalaşmasına əsaslı şəkildə təsir göstərir.

**Məqalənin elmi yeniliyi.** Yeniyetmələrin psixoloji inkişaf xüsusiyyətləri araşdırılmış, böhran xüsusiyyətləri tədqiq edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Çələbiyev N. Uşaq psixologiyası. Bakı, 2005.
2. Əzimli Q. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı, 2008.
3. Həmzəyev M. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2006.
4. Смирнова Е. Детская психология. М., 2003.
5. Поливанова К. Психология возрастных кризисов. М., 2000.

**М. Гасанова**

## Подростки: особенности и проблемы возрастного периода
## Резюме

В статье указывается, что подростковый возраст особый и сложный период развития. В статье психологическом аспекте пояснены психологические особенности и особенности развития периода подросткого возраста. Истец исследует психологические трудности этого возраста, психологичес- кие особенности периода кризиса и расследует их причины.

**M. Hasanova**

## Teens: characteristics and problems of the age period
## Summary

The article indicates that adolescence special and difficult period of development. The article explained the psychological aspect of the psychological characteristics and peculiarities of the period of adolescents age. Plaintiff explores the psychological difficulties of this age, the psychological characteristics of the period of crisis and investigates their causes.